*XX əsr Azərbaycan ədəbiyyatının klassiki, ən tanınmış və çox oxunan nümayəndələrindən biri İlyas Əfəndiyev 60 ildən artıq məhsuldar yaradıcılıq yolu keçmişdir. Söz sənətinin müxtəlif janrlarında bir-birindən daha gözəl və oxunaqlı, təkrarı olmayan orijinal hekayə, povest, roman, dram əsərləri, ədəbi-tənqidi məqalələr və oçerklər yazmışdır. Lakin daha çox nasir və dramaturq kimi şöhrət qazanmışdır.*

*Hər bir yazıçı üçün vacib və mühüm problem olan "oxucu problemi" İlyas Əfəndiyev üçün istər sağlığında, istərsə də ölümündən sonra həll olunmuşdur. Onun əsərləri heç vaxt kitab rəflərində qalmır. İlyas Əfəndiyev oxucularının "xəritəsi" təkcə Azərbaycanın ərazisi ilə məhdudlaşmır. Dünyanın bir çox ölkələrinin oxucuları yazıçının əsərlərini sevə-sevə oxuyurlar.*

*Yazıçıları bir-birindən təkcə bədii forma və üslub əlamətləri ayırmır, onları daha çox fərqləndirən fərdi poetik aləmləridir. Bu mənada İlyas Əfəndiyev yaradıcılığı ədəbiyyatımızda xüsusilə fərqlidir. Onun yaradıcılığında novatorluq və müasirlik əsas xüsusiyyətlərdəndir. İlyas Əfəndiyev bu barədə yazırdı: "Mənə görə, sənətkar üçün müasirlikdən ayrılmaq havadan və sudan ayrılmaq kimi bir şeydir.*

# "SƏN HƏMİŞƏ BİZİMLƏSƏN"

Müasirlik dedikdə isə, mən birinci növbədə, ədəbiyyatda müsbət qəhrəmanın yüksək bədii surətini yaratmağı nəzərdə tuturam". Məhz bu səbəbdən də yazıçının qələmə aldığı Nuriyyə, Səlimə, Nargilə, Həsənzadə, Nərmin, Kamran, Valeh, Sarıköynək, Murad, Ərşad, Natəvan, Sadıqcan və başqa obrazlar minlərlə oxucunun ürəyində özlərinə əbədi yer tapmışlar.

Sağlığında klassikə çevrilən sənətkarlar nadir hallarda olur. Belə sənətkarlar öz sənət nümunələri ilə xalqının acılı–şirinli bütün taleyinin fövqündə dayanır, yaradıcılığı ilə millətinin keşiyini çəkir, onun varlığını dünyaya tanıdır. İlyas Əfəndiyev məhz belə sənətkarlardan idi.

Vətənpərvər bir yazıçı kimi İlyas Əfəndiyevin 60 ildən çox qələmə aldığı ən kiçik hekayə və oçerklərindən tutmuş, iri həcmli povest, roman və dram əsərlərinə qədər bütün əsərlərinin mayasını Azərbaycan xalqının həyatı, onun taleyi və adət-ənənəsi təşkil etmişdir. 60 ildən çox müddətdə o, Azərbaycan torpağının gözəlliyi, Azərbaycan dilinin şirinliyi və cazibədarlığı, Vətən adlı nemətin müqəddəsliyi və toxunulmazlığı barədə nəğmələr oxumuşdur. İllər keçdikcə və indi də bu məğrur, nəcib nəğmələr ürəyində yurd məhəbbəti, Vətən qeyrəti olanların hamısının mahnısına çevrilmişdir.

Bu il unudulmaz xalq yazıçısı, yazıçı-dramaturq İlyas Əfəndiyevin anadan olmasının 90 illiyi tamam olur.

Ölkə başçısı cənab İlham Əliyevin 24 may 2004-cü ildə imzaladığı sərəncama əsasən İlyas Əfəndiyevin 90 illik yubileyi dövlət səviyyəsində qeyd ediləcək. Ümummilli liderimiz Heydər Əliyev həmişə İlyas Əfəndiyev yaradıcılığına məhəbbətlə yanaşmış, yazıçının sağlığında da, vəfatından sonra da Akademik Milli Dram Teatrında tamaşaya qoyulan əsərlərinə baxmış, yubileyinin, xatirəsinin keçirilməsi və əbədiləşdirilməsi üçün müxtəlif sərəncamlar imzalamışdır. İlyas Əfəndiyev müstəqil respublikamızın "Şöhrət" ordeni ilə təltif edilən ilk şəxslərindəndir. Ümummilli liderimiz Heydər Əliyevin fikirləridir: "İlyas Əfəndiyevin bütün yaradıcılığını, onun yazdığı əsərləri böyük minnətdarlıq hissi ilə xatırlayıram. Hesab edirəm ki, o, xalqımız qarşısında öz borcunu, daha doğrusu, öz missiyasını şərəflə yerinə yetirmişdir, xalqımıza, mədəniyyətimizə, teatrımıza, ədəbiyyatımıza çox böyük irs, sərvətlər qoyub getmişdir. Güman edirəm ki, bunu xalqımız heç vaxt unutmayacaqdır... İlyas Əfəndiyevin əsərləri də, özü də həmişə xalqın qəlbində yaşayacaqdır".

İlyas Əfəndiyevin adı o taylı-bu taylı Azərbaycanımızın hər bucağında, eləcə də dünyanın müxtəlif guşələrində böyük

ehtiram və məhəbbətlə çəkilir.

İlyas Əfəndiyev ədəbiyyata XX əsrin 30-cu illərinin axırlarında çap etdirdiyi kiçik hekayələri ilə gəlmişdir. "Kənddən məktublar" adlı ilk povest və hekayələr kitabı 1939-cu ildə nəşr edilmişdir. "Tar çalındı", "Sən ey qadir məhəbbət", "Qəhrəmanla bülbülün nağılı", "Qarı dağı", "Apardı sellər Saranı", "Gülaçar", "Su dəyirmanı", "Yun şal", "Qırçı və qırmızı çiçək" kimi hekayələrini oxuculara təqdim etdikdən sonra ədəbiyyatımızda xırda hekayələr ustası kimi tanınmışdır.

1958-ci ildə yazdığı "Söyüdlü arx" romanı bir yazıçı kimi ona böyük şöhrət gətirmişdi. 60-cı illərdən etibarən iri həcmli povest və romanlar - "Körpüsalanlar" (1960), "Dağlar arxasında üç dost" (1963), "Sarıköynəklə Valehin nağılı" (1978), "Geriyə baxma, qoca" (1980), "Üçatılan" (1981), "Qaçaq Süleymanın ölümü" (1993), "Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı" (1996) kimi çoxşaxəli əsərlərin hər biri Azərbaycan nəsrində əsl ədəbi hadisəyə çevrilmiş, oxucuların stolüstü kitabları olmuşdur.

İlyas Əfəndiyevin adı XX əsr Azərbaycan ədəbiyyatı tarixinə yalnız istedadlı nasir kimi deyil, eyni zamanda klassik Azərbaycan dramaturgiyasının ən yaxşı ənənələrini uğurla davam və inkişaf etdirən ölməz dram əsərlərinin müəllifi kimi daxil olmuşdur. O, böyük sənətkarlar M.F.Axundov, C.Məmmədquluzadə, H.Cavid, C.Cabbarlı, S.Vurğunun dram əsərlərindən bəhrələnmiş və dramaturgiyamızı yeni yüksək bir zirvəyə qaldırmışdır. Onun 60 illik bir dövrdə Azərbaycan Akademik Milli Dram Teatrının səhnəsindən düşməyən "Atayevlər ailəsi" (1954), "Sən həmişə mənimləsən" (1964), "Unuda bilmirəm" (1968), "Məhv olmuş gündəliklər" (1969), "Mahnı dağlarda qaldı" (1972), "Bağlardan gələn səs" (1975), "Natəvan" (1981), "Bizim qəribə taleyimiz" (1988), "Sevgililərin cəhənnəmdə vüsalı" (1989), "Tənha iydə ağacı" (1991), "Dəlilər və ağıllılar" (1992), "Hökmdar və qızı" (1994) və s. pyesləri müasir dramaturgiyamızın imkanlarını xeyli genişləndirmiş və teatrşünaslıq elmində çoxdan mövcud olan "Cəfər Cabbarlı teatrı", "Hüseyn Cavid teatrı" terminlərinə "İlyas Əfəndiyev teatrı" anlayışını da əlavə etmək səlahiyyəti vermişdir.

İlyas Əfəndiyev Azərbaycan dramaturgiyasında yeni bir məktəb açmış, lirik-psixoloji pyeslərin əsasını qoymuş sənətkar kimi də tanınmışdır. Onun qələminin məhsulu olan 23 dram əsərinin 19-u eyni bir teatrın Azərbaycan Akademik Milli Dram Teatrının səhnəsində böyük müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. Bu, dünya teatrı tarixində analoqu olmayan bir hadisədir.

İlyas Əfəndiyevin bir sıra əsərləri dünyanın müxtəlif xalqlarının dillərinə tərcümə edilmiş, pyesləri Moskva, Daşkənd, Tbilisi, Aşqabad, Səmərqənd, Ankara, İstambul, Razqrad, Mahaçqala və s. şəhərlərin teatr səhnələrində müvəffəqiyyətlə tamaşaya qoyulmuşdu.

İlyas Əfəndiyev uzun müddət Azərbaycan mətbuatında, nəşriyyatlarda, Yazıçılar İttifaqında səmərəli fəaliyyət göstərmiş, respublikanın ədəbi-ictimai həyatında fəal iştirak etmişdir.

İlyas Əfəndiyev Azərbaycanın Əməkdar İncəsənət Xadimi (1960), Azərbaycanın Xalq Yazıçısı (1979) fəxri adlarını almış, Azərbaycan Dövlət mükafatına (1972) layiq görülmüş, "Şöhrət" ordeni (1994) ilə mükafatlandırılmışdır.

İlyas Əfəndiyev 1996-cı il oktyabr ayının 3-də Bakı şəhərində dünyasını dəyişmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.

Ölümündən sonra da İlyas Əfəndiyevin yaradıcılığına maraq azalmır, əksinə ildən-ilə artır. Unudulmaz Prezidentimiz, əbədi liderimiz Heydər Əliyevin sərəncamı ilə İlyas Əfəndiyevin xatirəsinin əbədiləşdirilməsi, Bakı küçələrindən və məktəblərindən birinə onun adının verilməsi, əsərlərinin çoxcildliyinin yenidən nəşr edilməsi, yaradıcılığının tənqidçilər tərəfindən tədqiqi, ölkə başçısı İlham Əliyevin bu ilki sərəncamı edibin yaradıcılığına ümumxalq məhəbbətinin və hörmətinin parlaq təzahürüdür.

Xalqımızın bədii salnaməsini yaratmış İlyas Əfəndiyev həmişə bizimlə olacaq, seviləcək və hörmətlə yad ediləcəkdir.

İlyas Əfəndiyevin 90 illik yubileyinin respublikada layiqincə keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamından irəli gələn tədbirləri bütün mədəniyyət və maarif müəssisələri, eləcə də uşaq kitabxanaları təşkil etməlidir.



Yubileylə bağlı uşaq kitabxanalarında da İlyas Əfəndiyev ədəbi irsinin təbliği üçün geniş tədbirlər planı işlənib hazırlanmalı və həyata keçirilməlidir. Çoxsaylı oxucu kütləsinin sorğularını ödəmək məqsədilə kitabxanaçılar həm İlyas Əfəndiyev əsərlərindən, həm onun yaradıcılığına və həyatına dair ədəbiyyatlardan, həm də onun yubileyi ilə əlaqədar nəşr olunan materiallardan geniş istifadə etməlidirlər.

İlyas Əfəndiyev ədəbi irsinin təbliği üçün ilk növbədə kitab sərgilərindən istifadə olunmalıdır. İlyas Əfəndiyevin həyatını, yaradıcılığını, onun haqqında olan materialları təbliğ etmək üçün ayrıca sərgilər təşkil etmək olar.

Sərgilər üçün "İlyas Əfəndiyev-90", "İlyas Əfəndiyev zirvəsi", "Həmişə bizimlə olacaq sənətkar", "Unudulmaz yazıçımız" və s. başlıqlardan istifadə etmək olar.

Bu sərgilərdə görkəmli şəxslərin İlyas Əfəndiyev haqqında söylədiyi fikir-lərdən, sitatlardan istifadə etmək daha yaxşı olar. Nümunələr veririk:

***"Dünya mədəniyyətinə ölməz dühalar bəxş etmiş Odlar diyarında xalqın məhəbbətini qazanmaq, sənət zirvəsinə ucalmaq olduqca çətin və şərəflidir. İlyas Əfəndiyev fədakar əməyi sayəsində bu şərəfə nail olmuşdur.***

*Oxucuların sevə-sevə mütaliə etdiyi nəsr əsərləri, milli teatrımızın səhnəsində tamaşaya qoyulan pyesləri bunu parlaq şəkildə sübut edir.*

*Onun yaratdığı obrazlar xalqımızın övladlarına mənəvi saflıq və vətənpərvərlik aşılanması işinə xidmət etmişdir. Əminik ki, müstəqil Azərbaycanımızın neçə-neçə nəsli bu zəngin mənbədən faydalanacaqdır."*

*Heydər Əliyev*

*"Azərbaycan ədəbiyyatı mənim nəzərimdə böyük və rəngarəng gülüstan isə, İlyas Əfəndiyevin yaradıcılığı bu gülüstanda öz gözəlliyi, ətri və təravəti ilə dərhal diqqəti cəlb edən cazibədar toplu və dolğun bir çiçəkdir."*

*Mirzə İbrahimov,*
*xalq yazıçısı*

***"Azərbaycan Dövlət Akademik Dram teatrının inkişafını İlyas Əfəndiyevsiz təsəvvür etmək mümkün deyil...***

***Onun pyeslərində həmişə təzə, təravətli görünən bir müasirlik var."***

*İsmayıl Dağıstanlı,*
*xalq artisti*

***"İlyas Əfəndiyev ən çox oxunan, sevilən, özü də heç kimə oxşamayan yazıçılarımızdandır.***

*Kamal Talıbzadə*
*akademik*

**"İlyas Əfəndiyev daima yenilik hissi ilə çırpınan hər təzə əsərində yeni bir söz deməyə çalışan, müasir gəncliyi düşündürən məsələləri əks etdirən, özünəməxsus xətti ilə başqalarından seçilən qələm sahibidir."**

*Bəxtiyar Vahabzadə,*
*xalq şairi*

*"Azərbaycan tarixi barədə klassik sənədlər-yeddi "Qarabağnamə" var. Bütünlükdə İlyas Əfəndiyevin yaradıcılığını mən səkkizinci "Qarabağnamə" hesab edirəm."*

*Yaşar Qarayev,*
*tənqidçi*

*"İlyas Əfəndiyev böyük dramaturq və nasirdir. Onun müasir Azərbaycan ədəbiyyatının və teatr sənətinin inkişafında müstəsna xidməti var. Ən çox oxunan, sevilən Azərbaycan yazıçılarından biridir.."*

*Tofiq Quliyev,*
*bəstəkar, xalq artisti*

Tərtib olunacaq sərgilərdən birinin təxmini sxemini veririk:

1.Başlıq. Məsələn: "İlyas Əfəndiyev-90", "İlyas Əfəndiyev zirvəsi","Unudulmaz sənətkar" və s.

2.İlyas Əfəndiyevin şəkli.

3.Görkəmli şəxsiyyətlərin İlyas Əfəndiyev haqqında fikirləri.

4.İlyas Əfəndiyevin əsərləri. ("Seçilmiş əsərləri"nin müxtəlif illərdə nəşr olunmuş nəşrlərindən nümunələr)

5.İlyas Əfəndiyevin ayrı-ayrı əsərləri.

6.İlyas Əfəndiyev haqqında yazılmış ədəbiyyat.

7.İlyas Əfəndiyevin uşaqlar üçün yazdığı əsərlər.

8.İlyas Əfəndiyev və teatr.

Təşkil edilmiş yubiley sərgisinin qarşısında silsilə tədbirlər (söhbətlər, ədəbiyyat bülletenləri, biblioqrafik ic-

mallar və s.) keçirmək planlaşdırılmalıdır.

Kiçik yaşlı oxucularla yazıçının "Zəmidə bir turac səslənirdi", "Qırçı və qırmızı çiçək", "Ceyran ovu" kitabları əsasında ucadan oxular, söhbətlər, səhnəciklər təşkil etmək olar.

İlyas Əfəndiyev ədəbiyyat tariximizə uşaq yazıçısı kimi daxil olmasa da balalarımız üçün bir sıra maraqlı hekayələr yazmışdır. Ədibin balaca oxucular üçün yazdığı əsərləri "Qoruqlarda", "Hekayələr", "Zəmidə bir turac səslənirdi", "Qırçı və qırmızı çiçək", "Ceyran ovu" adlı kitablarında toplanmışdır.

İlyas Əfəndiyevin uşaq ədəbiyyatının inkişafındakı xidmətləri iki cəhətdən diqqəti cəlb edir. Bunlardan biri, yazıçının uşaqlar üçün orijinal bədii əsərlər yarat-ması, digəri isə uşaq ədəbiyyatının inkişafı, vəziyyəti və onun nəzəri problemləri ilə əlaqədar sürdüyü elmi-nəzəri mülahizələridir.

Yazıçının uşaq əsərləri arasında "Yasəmən ağacı", "Almurad baba", "Ceyran ovu", "Murad dayının sevinci", "İz ilə", "Zəmidə bir turac səslənirdi", "Yaylaq qonşumuz" və s. hekayələri daha çox diqqəti cəlb edir. Kənd həyatından söhbət açan bu hekayələrin həcmi kiçik, dili sadə və rəvandır. Yazıçı uşaq qəlbini ələ almağa, onu düşünməyə və həyəcanlandırmağa çalışır. Müəllif yaxşı başa düşür ki, kiçik və orta yaşlı uşaqlar təbiət hadisələri, heyvanlar aləmi ilə daha çox maraqlanırlar. Buna görə də bu mövzuların təsvirinə geniş yer verir. İlyas Əfəndiyev bu hekayələrində həyata uşaqların gözü ilə baxmış, əməksevər və namuslu adamları, üstündə gəzdiyi vətən torpağının gözəlliklərini təsvir və tərənnüm etmiş, balaca oxucuları ilə onların başa düşə biləcəyi dildə danışmışdır. Sadəlik, aydınlıq, yığcamlıq bu hekayələrin əsas xüsusiyyətlərini təşkil edir.

Yazıçının uşaqlar üçün yazdığı hekayələrində əmək mövzusu mühüm yer tutur. "Zəhmətsiz gözəllik yoxdur" fikrinə əsaslanan yazıçı "Almurad baba", "Qaşqa dayın öyrədilməsi", "Murad dayının sevinci", "İz ilə" və başqa hekayələrində uşaqlara bu ideyanı təlqin etməyə çalışmışdır.

Uşaqlar təbiət hadisələri ilə əlaqədar söhbətlərə, yağışın yağması, göyün guruldaması, çayların daşması, Ayın və Günəşin tutulması, eyni zamanda heyvanlar aləmilə əlaqədar hadisələrə qulaq asmağı çox sevdiklərindən, yazıçı hekayələrinin müəyyən hissəsini bu məsələlərə həsr etmişdir.

Yazıçının diqqətini cəlb edən hekayələrindən biri də "Yasəmən ağacı" adlanır. Bu hekayəsində yazıçı məktəblilərin mühüm vəzifələrindən olan yaşıllıqların salınması, ağac və gül kollarına qulluq edilməsi, quşların mühafizəsi məsələlərinə toxunmuşdur. Təbiət gözəlliklərinə qarşı qayğıkeş və diqqətli olmağı təbliğ edən İlyas Əfəndiyev yasəmən ağacının budağını sındıraraq bülbülün yuvasını dağıdan Cəfər və Nadir kimi nadinc, dəcəl uşaqları tənqid edir. Həmin xoşagəlməz hadisəni görən Aslan müəllim uşaqlara deyir: "Biz dünyaya, onu daha da gözəlləşdirmək üçün gəlmişik, biz onun gözəlliklərini məhv etmək üçün doğulmamışıq." Bu sözlər bu gün də aktualdır. Ekoloji böhran keçirən Yer kürəsi bu gün insan qayğısına möhtacdır.

İlyas Əfəndiyev həm də uşaq ədəbiyyatının inkişafı barədə bir sıra maraqlı elmi-nəzəri məsələlər irəli sürmüş, uşaq ədəbiyyatında olan çatışmazlıqları, gözə çarpan nöqsanları qeyd etmişdir. Yazıçının mülahizələrinə görə uşaq ədəbiyyatında gözə çarpan nöqsanlar aşağıdakılardır:

1.Mövzu məhdudluğu.
2.Yadda qalan uşaq obrazlarının azlığı.
3.Tarixi keçmişimizin zəif təsviri.
4.Elm və texnika yeniliklərinin ədəbiyyatda bəsit işıqlandırılması.
5.Uşaq pyeslərinin dayazlığı.
6.Uşaq əsərlərinin bədii tərtibatının və nəşrinin çox aşağı səviyyədə olması.

Tədbirlər zamanı bu fikirlərə müasir baxımdan yanaşılmalıdır. Bu isə kitabxanaçılardan xüsusi bilik və bacarıq tələb edir.

İlyas Əfəndiyevin yubileyi münasibətilə təşkil olunacaq tədbirlərdən biri də sual-cavab gecələri və ya ədəbi viktorinalar ola bilər. "İlyas Əfəndiyev yaradıcılı-ğında vətənpərvərlik", "İlyas Əfəndiyev romanları", "Bu surətləri tanıyırsınızmı?", "İlyas Əfəndiyev və teatr" və s. mövzularda sual-cavab gecələri,



viktorinalar təşkil etmək olar. Yaddan çıxarmaq lazım deyil ki, belə tədbirlərin keçirilməsində əsas məqsəd kitab təbliği olmalıdır. Eyni zamanda kitabxanaçı bilməlidir ki, yazıçının hansı əsərləri oxucuların bədii zövqünün formalaşmasına kömək edir.

İlyas Əfəndiyevin ədəbi irsinin təbliği üçün daha böyük vaxt tələb edən tədbirlərdən - oxucu konfranslarından da istifadə etmək olar. İlyas Əfəndiyev ədəbi irsi zəngindir. Buna görə də oxucu konfransı geniş oxucu kütləsinin dərin marağına səbəb ola bilər. Yubilyarın ayrı-ayrı əsərlərinin, eləcə də ümumi mövzu altında oxucu konfranslarının keçirilməsi mümkündür. Məsələn: "İlyas Əfəndiyev əsərlərində vətənpərvərlik məsələləri", "İlyas Əfəndiyev əsərlərində Qarabağ mövzusu", "İlyas Əfəndiyevin Azərbaycan dramaturgiyasında rolu" və s. Belə konfransların keçirilməsi üçün 2 ay müddətində hazırlıq işləri görülməlidir.

Yubileyi ilə əlaqədar il ərzində kitabxanalar "İlyas Əfəndiyev-90" adı altında məruzələr təşkil edə bilərlər. Məruzəçilər əvvəlcədən seçilməlidir. Kitabxanaçılar, ədəbiyyat müəllimləri, yuxarı yaşlı məktəbli oxucular məruzəçi ola bilər. Onlar İlyas Əfəndiyevin həyat və yaradıcılığı haqqında geniş məlumata malik olmalıdırlar. "İlyas Əfəndiyevin həyat yolu", "İlyas Əfəndiyev nəsrinin uğurları", "İ.Əfəndiyevin povest və romanlarında müasir həyatın inikası", "Tarixi simaların səhnə həyatı", "İ.Əfəndiyevin ədəbiyyat haqqında düşüncələri", "İ.Əfəndiyevin uşaq hekayələri" və s. məruzə mövzuları ola bilər.

Kitabxanalarda keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecələrdir. İlyas Əfəndiyev irsinin təbliği üçün ədəbi-bədii gecələrin keçirilməsi daha vacibdir. Bu tədbir müxtəlif adlar altında keçirilə bilər. Məsələn: "İlyas Əfəndiyevin romanları", "İlyas Əfəndiyevin dramaturgiyası", "Həmişə bizimlə olacaq sənətkar", "İlyas Əfəndiyev zirvəsi", "Bir zirvənin ünvanı" və s. Bu tədbirin keçirilməsinə 2 ay qalmış mövzu seçilməli, hazırlıq işləri görülməlidir.

Tədbir 2 hissəli olmalıdır. Birinci hissədə İlyas Əfəndiyevin həyat və yaradıcılığı haqqında məruzə olmalı, çıxışlar dinlənilməlidir. Tədbirin ikinci hissəsi isə bədii məna kəsb edir. Belə tədbirlərdən biri "Bir zirvənin ünvanı" adlı ədəbi-bədii gecə üçün hazırlanmış ssenarini veririk. Tədbir bir neçə icraçı tərəfindən aparılır:

"Bir zirvənin ünvanı"

-Sənətin müxtəlif zirvələri var...Onlardan biri də İlyas Əfəndiyev zirvəsidir.

-Bu zirvədə parlayan istedad günəşi illər ötdükcə dumanları, qaranlıqları parçalayıb, saçları badam ağaclarının çiçəklərinə bənzəyən, mehriban çöhrəli bir insanın, görkəmli yazıçının, dramaturqun ömür, yaradıcılıq yollarını işıqlandırıb.

-Bu zirvədə sənət şəlalələri çağlayıb, ilham bulaqları axıb...

-Əbədiyyətə qovuşub. Ədəbi aləmdə öz nuru ilə hələ də işıq saçır, gənc yazarların gələcək yollarını işıqlandırır.

-İlyas Əfəndiyev zirvəsindən baxırıq... Gözlərimiz önündə bir-birindən əsrarəngiz mənzərələr, təbiət lövhələri canlanır...

-1939-cu ildə "Kənddən məktublar" adlı ilk povest və hekayələr kitabı nəşr olunub yazıçıya böyük şöhrət gətirmiş, İlyas Əfəndiyev zirvəsinə ilk cığır olmuşdur.

-Bu cığır aydın yollara çıxmış, bu yollar zirvələrə qalxmış, görkəmli söz ustadını Azərbaycanın Xalq yazıçısı, Respublika Dövlət Mükafatı laureatı, "Şöhrət" ordenli sənətkar, xalqın, elin, obanın sevimlisi etmişdir...

-Zirvə yolları ilə addımlayırıq. Bu yollarda qarşımıza Nərmin, Kamran, Alxan, Sədəf, Adil, Xosrov, Səriyyə, Atayev, Həsənzadə, Natəvan, Nargilə, Valeh, Sarıköynək...çıxır...

-Bu yollar bizi "Söyüdlü arx"ın yanına gətirir, "Körpüsalanlar"la görüşdürür.

-Addımladıqca "Dağlar arxasında üç dost" əl edib bizi salamlayır. Bu yolların hər qarışı, hər daşı elə bil məhəbbətdən yaranıb. Bizi sevməyə, sevilməyə, dostluğun, məhəbbətin qədrini bilməyə, səadəti göz bəbəyi kimi qorumağa çağırır.

-İlyas Əfəndiyev zirvəsindən baxırıq...Bu zirvə bizi Azərbaycan Milli Dram Teatrına səsləyir...Elə teatra ki, sanki görkəmli sənətkarın bahadır çiyinləri üstündə ucalmışdır.

-Elə teatra ki, dramaturqun "İntizar"ına son qoyulmuşdu, səhnədə ilk cığır olan bu əsər

"İşıqlı yollara" çevrilmişdi, "Bahar suları" aşıb-daşmışdı. "Məhv olmuş gündəliklər" yenidən dilə gəlmiş, "Dağlardan gələn səs" bizi xəyallardan ayırmışdı.

-Elə teatra ki, "Qəribə oğlan"ın sərgüzəştləri ilə bizi tanış etmiş, "Natəvan"ın faciəsindən söz açmış, gözlərimiz önündə "Şeyx Xiyabanı"nı canlandırmışdı...

-Elə teatra ki, səhnəsindən "Unuda bilmirəm", "Mahnı dağlarda qaldı" nidalarını eşitmişik. "Büllur sarayda" baş verən hadisələr bizi düşündürüb, həyəcanlandırıb...

-"Bizim qəribə taleyimiz" gözlərimiz önündə lirik bir mahnıya dönüb, "Sevgililərin cəhənnəmdə vüsalı" qorxulu nağıla, əfsanəyə çevrilib.

-İlyas Əfəndiyev zirvəsindən baxırıq...Yazıçı, dramaturq, gözəl insan haqqında deyilmiş sözləri eşidirik..."İlyas Əfəndiyev öz gözəl əsərləri ilə dramaturgiyamızda yeni cığır açdı."

-"Əgər dram teatrı bir üzükdürsə, İlyas Əfəndiyevin pyesləri bu üzüyün qiymətli qaşıdır"...

-"O, əsl sənət fədaisidir..."

-Unudulmaz yazıçı-dramaturqun sağlığında deyilən bu sözlər, bu təriflər bu gün də öz dəyərini qoruyub saxlayır...

-Öz-özümüzə deyirik: Kaş 90 yaşlı sənətkarımız bu gün də yaşayaydı...

-İlyas Əfəndiyev zirvəsindən baxırıq... Sanki bu zirvənin ətrafında İlyas Əfəndiyevin narahat ruhu dolaşır...

-Qarabağ həsrətli narahat ruhu...

***-Əziziyəm Qarabağ,***
***Şəki, Şirvan, Qarabağ***
***Dünya cənnətə dönsə,***
***Yaddan cıxmaz Qarabağ.***

-Yaddan cıxmaz torpağın
Taleyini yıxanlar
İlahi bir səs deyir:
***Sən səbr eylə, yazan var.***
***Yazan var sözlərini***
***Qəlbinə, ürəyinə***
***Halallıq qatılıbdır***
***Bu xalqın çörəyinə.***

-Eh ey!

-Dayan, səs gəlir.

-Geriyə baxmayın övladlarım! Əsirlikdə qalan Vətən torpağı sizləri gözləyir.

-Bu səs unudulmaz yazıçımız İlyas Əfəndiyevin narahat ruhunun səsidir. Nə qədər ki, Qarabağ torpağı düşmən tapdağındadır, narahat olacaq bu ruh.

-Bizi qisasa çağırır bu səs.

Son.

İlyas Əfəndiyevin 90 illiyi münasibətilə təşkil olunacaq kütləvi tədbirlərin keçirilməsində istifadə etmək üçün ədəbiyyat siyahısı.

## ƏSƏRLƏRİ


1.Seçilmiş əsərləri.YII cilddə. I-YII cildlər.B.: Çinar-Çap, 2002.
2.Seçilmiş əsərləri.YI cilddə. I-YI cildlər.B.: Yazıçı, 1984.
3.Seçilmiş əsərləri.IY cilddə. I-IY cildlər.B.: Azərnəşr, 1969-1973.
4.Seçilmiş əsərləri.II cilddə. I-II cildlər.B.: Azərnəşr, 1964-1965.
5.Bizim qəribə taleyimiz.- B.: Yazıçı, 1989.-533s.
6.Ceyran ovu.(Hekayələr).- Gənclik, 1994- 101s.
7.Dağlar arxasında üç dost.- B.: Azərnəşr, 1967.- 364s.
8.Geriyə baxma, qoca.- B.: Yazıçı, 1981.- 356s.
9.Körpüsalanlar.- B.:Uşaqgəncnəşr, 1960.-152s.
10.Qırçı və qırmızı çiçək.- B.: Gənclik, 1981.-190s.
11.Sarıköynəklə Valehin nağılı.- B.: Gənclik, 1980.- 327s.
12.Sən ey böyük yaradan.- B.: Şərq-Qərb, 1997.- 162s.
13.Söyüdlü arx.- B.: Gənclik, 1974.- 362s.
14.Üç roman.- B.: Gənclik, 1987.- 534s.
15.Üçatılan.- B.: Gənclik, 1982.- 398s.
16.Zəmidə bir turac səslənirdi.- B.: Gənclik, 1967.- 71s.


## HƏYAT VƏ YARADICILIĞI HAQQINDA


1.Dilsuz, Tahirli A. Sən həmişə bizimləsən.- B.: Gənslik, 1993.-392s.
2.Əfəndiyev Ə. İlyas Əfəndiyev.Albom-monoqrafiya.- B.:İşıq, 1996.- 224s.
3.Əfəndiyev Ə. İlyas Əfəndiyev. Biblioqrafik göstərici.-B.: Çinar-çap, 2002.- 240s.
4.Əfəndiyev Ə. İlyas Əfəndiyevin yaradıcılığı.- B.: Elm, 2000.- 310s.
5.Qarayev Y. İlyas Əfəndiyev.- B.: Bilik, 1987.- 50s.
6.Salahova A. İlyas Əfəndiyev yaradıcılığının poetikası.- B.: Yazıçı, 1984.- 136s.
7.Seyidov Y. İlyas Əfəndiyev.- B.: Azərnəşr, 1975.- 235s.


***F.Qasımova,***
***F.Köçərli adına Dövlət Uşaq Kitabxanasının direktoru.***